**AZƏRBAYCAN RESPUBLIKASININ**
**AUDITORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№342/4** **04 aprel 2022-ci il**

**Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması barədə**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 sentyabr tarixli 1/518 nömrəli məktubundan irəli gələn vəzifələrin, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası"nın (2021-2030-cu illər) 5.4-cü "Rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətləri" bölməsinin, Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyanın, Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.2-ci "Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması" bəndinə əsasən tərtib edilmiş qrafikin 2-ci "Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması sahəsində strategiyanın hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) və Palata sədrinin elmi-metodik məsələləri üzrə müşaviri (N.Talıbov) tərəfindən hazırlanmış "Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması sahəsində strategiya"nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması sahəsində strategiya" bəyənilsin (əlavə olunur).
2. "Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması sahəsində strategiya"nın 4-cü "Tədbirlər Planı" bölməsində nəzərdə tutulan vəzifələrin icrası Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) həvalə edilsin.
3. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, "Auditorun şəxsi kabineti" sisteminin fəaliyyətinin təşkili, kibertəhlükəsizliyinin qorunması və təkmilləşdirilməsi işləri bu strategiyaya uyğun davam etdirilsin.
4. Bu qərarın mətni azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**